**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ**

**Gəncə Dövlət Universitetinin Elmi Şurasının 28.12.2023-cü il tarixli (protokol № 04) Qərarı və rektorluğun 16.01.2024-cü il tarixli 5/11 saylı əmri ilə təsdiq edilmişdir**

**GDU-nun rektoru ______________ prof. Y.Ə.YUSİBOV**

**«16» ___01___ 2024-cü il**

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ

# BEYNƏLMİLƏLLƏŞMƏ SİYASƏTİ

**GƏNCƏ - 2024**

Beynəlmiləl universitetə çevrilmək Gəncə Dövlət Universitetinin (GDU) əsas hədəflərindən biridir. Siyasətin əsas məqsədi məhz universitetdə beynəlmiləlləşmə ilə bağlı fəaliyyətləri gücləndirməkdən ibarətdir. Beynəlmiləlləşmə siyasətinin əsas prioritetləri içərisinə əcnəbi təhsilalanların sayının artırılması, beynəlxalq mübadilə proqramlarında tələbə, müəllim və inzibati heyətin iştirakının təmin edilməsi, xarici dillərdə təhsil proqramlarının təsis edilməsi, beynəlxalq ikili diplom proqramlarının sayının davamlı artırılması kimi məsələlər daxildir. İnnovasiyalar Departamentinin struktur bölməsi olan Beynəlxalq Əlaqələr şöbəsi adı çəkilən istiqamətlərdə aparıcı rol oynayır və bu istiqamətdə bütün fakültələr və şöbələr ilə yaxından əməkdaşlıq edir.

GDU yerli və beynəlxalq tərəfdaşlar arasında müsbət sosial-iqtisadi qarşılıqlı əlaqənin yaradılması və digər ölkələr ilə əməkdaşlıqların genişləndirilməsini hədəfləyir. Bura müxtəlif xarici universitetlər və təşkilatlar ilə beynəlxalq əlaqələrin qurulması, ikili diplom proqramının reallaşdırılması, müxtəlif beynəlxalq layihələrin, tələbə-müəllim mübadilə proqramlarının həyata keçirilməsi kimi məsələlər daxildir ki, bunlar da beynəlmiləlləşmə siyasətində öz əksini tapır.

GDU Erasmus +, Mövlanə Mübadilə Proqramı və digər oxşar proqramlar çərçivəsində beynəlxalq əlaqələri genişləndirmək, yeni akademik tərəfdaşlıqlar qurmaq, kredit mobilliyi proqramları ilə əməkdaşlığı inkişaf etdirmək və beynəlxalq təhsil layihələrində iştirak etməkdə maraqlıdır. GDU beynəlxalq tərəfdaşlarla birgə tədqiqatların aparılması üçün beynəlxalq əməkdaşlıqların genişləndirilməkdə maraqlıdır. Beynəlxalq Əlaqələr şöbəsi Erasmus+ və digər proqramların məlumat sessiyalarını, layihələrin yazılması və icrası istiqamətində yerli və müxtəlif beynəlxalq seminarlar, konfranslar, görüşləri təşkil edir və universitetdə müxtəlif beynəlxalq elmi konfransların keçirilməsinə dəstək göstərilməsi ilə yanaşı birgə tədqiqat işlərinin aparılması və tədqiqat şəbəkəsinin genişləndirilməsi üçün nüfuzlu xarici ali təhsil və tədqiqat müəssisələriylə əməkdaşlıq fəaliyyətlərini genişləndirmək üçün fakültə və kafedralara kömək edir.

Universitetin beynəlmiləlləşmə siyasəti aşağıdakı istiqamətləri prioritet olaraq özündə birləşdirir:

**Beynəlxalq rəqabətliliyin artırılması:**

- Universitetin beynəlmiləlləşmə siyasəti və onun məqsədlərinə dəstək verəcək təşkilat, proses və kadr strukturunu yaratmaq və inkişaf etdirmək;
- Yerli və beynəlxalq təhsil sərgilərində iştirakı təmin etmək;
- Universitetin dünya reytinqində irəliləməsini təmin etmək və beynəlxalq təhsil portallarında iştirakını təmin etmək.

**Xarici dillərdə təhsil proqramlarının təsis edilməsi:**

- İngilis, rus, alman və s. xarici dillərdə təhsil proqramları təsis etmək;
- Tələbələr üçün xarici dillərdə hazırlıq proqramı təklif etmək.

**Beynəlxalq mübadilə proqramlarında iştirakın təmin edilməsi:**

- Nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil almaq arzusunda olanlar üçün imkanlar yaratmaq;
- Akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və hərkəsə əlçatanlıq prinsipləri əsasında hazırlanmış daxili prosedurlar əsasında təşkili;
- Tələbələrin, professor-müəllim heyətinin və inzibati heyətin xaricdə təhsil almaq, təcrübə keçmək və təlim keçmək üçün mobilliyini artırmaq;
- Professor-müəllim heyəti və tələbələr üçün xarici dil öyrənmək imkanı yaratmaq;
- Xarici universitetlərlə qurulan tərəfdaşlıq və əməkdaşlıq əlaqələrinin və onlarla həyata keçirilən təhsil mobilliyinin, elmi-tədqiqat, elmi, mədəni və ictimai fəaliyyətlərin sayını artırmaq.

**Əcnəbi tələbələrin cəlb olunması:**

- Əcnəbi tələbələrin sayını artırmaq;
- Əcnəbi tələbələrin gəldiyi ölkələrin sayının şaxələndirilməsi;
- Beynəlxalq vasitəçi təhsil şirkətləri ilə effektiv və səmərəli əlaqələr qurmaq;
- Beynəlxalq sertifikatlar əsasında tələbə qəbulu imkanlarını genişləndirmək;
- Əcnəbi tələbə və müəllimlər üçün Azərbaycan dilini öyrənmək imkanı yaratmaq.

**Beynəlxalq təcrübə əsasəında akademik imkanların gücləndirilməsi:**

- Beynəlxalq əcnəbi professor-müəllim heyətini universitetdə əmək fəaliyyətinə cəlb etmək;
- Xaricdə dövlət hesabına təhsil sahəsində əldə edilmiş təcrübə əsasında universitetin akademik potensialını gücləndirmək;
- Professor-müəllim heyətinin doktorluq dərəcəsi aldıqları ölkələrin sayını şaxələndirmək;

**Birgə tədqiqatlar aparmaq üçün beynəlxalq tədqiqatçılar ilə əlaqələr qurulması:**

- Beynəlxalq tərəfdaşlarla birgə tədqiqatların aparılması üçün beynəlxalq əməkdaşlıqları genişləndirmək;
- Birgə tədqiqat işlərinin aparılması, tədqiqat şəbəkəsinin genişləndirilməsi məqsədi ilə nüfuzlu xarici ali təhsil və tədqiqat müəssisələri ilə əməkdaşlıqlar qurmaq üçün fakültə və kafedralara bu sahədə kömək etmək;
- Universitetdə birgə beynəlxalq elmi konfransların keçirilməsinə dəstək göstərmək.

**Beynəlxalq təhsil şəbəkələri, beynəlxalq təhsil təşkilatları və dünyanın qabaqcıl ali təhsil müəssisələri ilə əməkdaşlıq edərək təhsil proqramlarının beynəlxalq təcrübəyə uyğunlaşdırılması:**

- Ölkənin inkişaf prioritetlərinə uyğun ixtisaslar üzrə tədrisi dünyanın qabaqcıl ali təhsil müəssisələrinin tədris proqramlarına uyğunlaşdırmaq;
- Fənn proqramlarını beynəlxalq təşkilatlar tərəfindən akkreditasiya etmək.

**Beynəlxalq ikili diplom proqramlarının təsis edilməsi:**

- Beynəlxalq ikili diplom proqramları yaratmaq və ikili diplom proqramlarının sayını davamlı artırmaq;
- Universitetdə təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənməsi;

- Ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, universitet təhsil sistemini beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirmək.

**Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resursların təmin edilməsi**

- Beynəlmiləlləşmə siyasətinin icrasına maliyyə resurslarının ayrılmasını təmin etmək;
- Beynəlmiləlləşmə siyasətinin icrasına insan resurslarının ayrılmasını təmin etmək;
- Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan infrastrukturun yenilənməsini və təkmilləşdirilməsini təmin etmək;
- Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların mütəmadi olaraq monitorinqinin və qiymətləndirilməsinin aparılmasını təmin etmək.

**Beynəlxalq əlaqələr üzrə fəaliyyətdən gələn gəlirlərin artırılması**

- Xaricdə və beynəlxalq miqyasda fəaliyyət göstərən reel sektor (istehsal edərək pul qazanan sektor) təşkilatları ilə əməkdaşlığı, onlarla birlikdə icra edilən fəaliyyətlərin sayını və növlərini artırmaq.

**Beynəlmiləlləşmə performansı**

- Beynəlmiləlləşmə hədəflərini və göstəricilərini inkişaf etdirməklə performansı monitorinq etmək, hesabat hazırlamaq, qiymətləndirməl və təkmilləşdirmək üçün fəaliyyətlər həyata keçirmək.

Universitetin beynəlmilləşmə siyasəti hazırlanan zaman "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu" və "Ali təhsil müəssisəsinin institusional və proqram akkreditasiyası üzrə qiymətləndirmə Meyarları" və s. kimi əhəmiyyətli sənədlər ilə uyğunluq nəzərə alınmışdır.